**Bayramov, Vaqif**. Azərbaycan Ordusu dünya hərb tarixinə yeni səhifə yazdı / V. Bayramov // Xalq qəzeti. - 2020. - 21 noyabr. - **№ 243**. - S. 5.

**İşğalçı Ermənistanın davamlı təxribatı nəticəsində sentyabrın 27-də başlanan Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı, 44 günlük savaşın sonunda ölkəmizin ərazi bütövlüyü gerçəkləşdi. Eyni zamanda, öz ərazisində beynəlxalq hüququ reallaşdıran Azərbaycan güc yolu ilə qəsbkarı BMT-nin qətnamələrini yerinə yetirməyə məcbur etdi.**

Xatırladaq ki, hələ müharibə başlayana kimi, erməni tərəf cəbhəboyu bütün istiqamətlərdə təxribatlar törədirdi. Ermənistan xarici işlər naziri Yaxın Şərqə səfəri və orada diaspor nümayəndələri ilə görüşlərindən sonra terror dəstələrinin Qarabağa yerləşdirilməsinə başlandı. Bununla yanaşı, işğal olunan torpaqlarımızda qanunsuz məskunlaşma həyata keçirildi.

Əslində, belə bir vəziyyətdə Ermənistan-Azərbaycan arasında müharibənin alovlanacağı gözlənilirdi. Həmçinin erməni hərbi-siyasi rəhbərliyinin qeyri-konstruktiv mövqeyi, hərbi ritorika ilə çıxışı, hədə-qorxu gəlməsi də artıq danışıqlar prosesinin tükəndiyindən xəbər verirdi. Bununla əlaqədar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev düşmənə təxribatların qarşısının qətiyyətlə alınacağı barədə bir neçə dəfə xəbərdarlıq da etdi.

Polkovnik Şair Ramaldanov söhbət zamanı bildirdi ki, o zaman ermən silahlı birləşmələrinin hər hansı istiqamətdə təxribat törədəcəyi haqqında Azərbaycan Ordusunun dəqiq məlumatı var idi. Belə bir halın şübhə doğurmaması isə onunla bağlı idi ki, işğalçı ordunun təxribatları, həmçinin yerdəyişməsi və bütün hərəkətləri silahlı qüvvələrimizin bölmələri tərəfindən izlənilir və lazımi tədbirlər görülürdü. Bir sözlə, əməliyyat şəraiti Azərbaycan Ordusunun tam nəzarəti altında idi.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmaqla cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları, habelə obyektləri hədəf aldı, nəticədə ölən və yaralananlar oldu, eyni zamanda, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəydi. Şübhəsiz ki, belə şəraitdə Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə ordumuz düşmənin növbəti hərbi təcavüzünün qarşısını almağa, əks-həmlə tədbirlərini həyata keçirməyə başladı.

Hərbi birləşmələrimiz 44 gün ərzində düşmənin komanda məntəqələrinə güclü zərbələr endirməklə onun manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini sıradan çıxardı. Beləliklə, sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik,

Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Azərbaycan böyük qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı.

Beləliklə, Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpasını reallaşdırdı. Bununla da silahlı qüvvələrimiz dünya hərb tarixinə yeni bir səhifə yazmaqla nəyə qadir olduğunu beynəlxalq aləmə nümayiş etdirdi.

Şübhəsiz ki, 44 günlük möhtəşəm uğur son 17 ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna verdiyi önəmin məntiqi nəticəsi idi. Yeri gəlmişkən, hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev demişdi: “Azərbaycanda ordu quruculuğu daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.

Bütün sahələrdə olduğu kimi, bu məsələdə də verdiyi vədə sadiq qalan dövlətimizin başçısı ötən dövrdə müasir döyüşlərin aparılmasında mühüm əhəmiyyət daşıyan hərbi texnikanın alınmasını, son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahların hərbi arsenala daxil edilməsini yüksək səviyyədə gerçəkləşdirmişdi. Bir sözlə, silahlı qüvvələrimizin döyüş imkanları tamamilə modernləşdirilmişdi.

Ordu quruculuğunda reallaşdırılan mühüm tədbirlərin nəticəsidir ki, 2020-ci ildə Azərbaycan Ordusu “Qlobal Atəş Gücü” (“Global Firepower”) indeksi üzrə 64-cü yerdə qərarlaşıb. Ermənistan ordusu isə bu siyahıda 111-ci yeri tutub. Məhz bu göstəricilər Azərbaycanın müharibədə qalib gəlməsini şərtləndirib.

“Global Firepower”ə görə, aktiv döyüş əməliyyatlarının başlandığı dövrdə Azərbaycanın hərbi qüvvələri 426 min nəfər təşkil edib. Ermənistanda isə bu göstərici 1,5 dəfə az – 245 min nəfər olub. Hava qüvvələri baxımından da Azərbaycan Ermənistanı 64-ə qarşı 147 təyyarə və helikopterlə iki dəfədən çox üstələyib.

Qələbənin əldə edilməsində isə ən önəmli amil silahlı qüvvələrimizdəki ruh yüksəkliyi, xalq-Prezident-ordu vəhdəti olub.

Bu gün tanınmış hərbi ekspertlər də işğal edilən ərazilərimizin azad edilməsi ilə başlanan əks-hücum əməliyyatlarında Azərbaycan Ordusunun XXI əsrdə müharibə aparılması nümunəsini yaratdığını təsdiqləyirlər. Bu barədə danışan tanınmış rusiyalı hərbi ekspert, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko deyib: “Əminliklə bildirirəm ki, müasir silahlardan – pilotsuz uçuş aparatlarından, hava patrulu xidməti üçün silah-sursatdan, hədəfləri dəf etmək üçün yüksəkdəqiqlikli vasitələrdən istifadə olunmaqla aparılan döyüş

əməliyyatlarının miqyası dünyanın aparıcı baş qərargahları tərəfindən çox diqqətlə öyrənilir. Eyni zamanda, Azərbaycan Ordusunun döyüş əməliyyatlarında əsas hədəfin mülki əhali olmaması təqdir edilir.

Ümumiyyətlə, bu müharibədə Azərbaycanın yüksəkdəqiqlikli silahdan istifadəsi dinc insanlar arasında itkilərin sayını azaldıb. Bu baxımdan, Azərbaycan həm hərbi uğur qazanıb, həm də Dağlıq Qarabağda yaşayan mülki vətəndaşların həyatını xilas edib. Bütün bunlar isə Azərbaycan Silahlı Qüvvələrinin qüdrətinə görə regionda ən yaxşı ordu olması qənaətini artıq formalaşdırıb".

Hərbi ekspertin vurğuladığı kimi, Azərbaycan döyüş əməliyyatları zamanı da haqqa, ədalətə söykənib, beynəlxalq konvensiyalara əsaslanıb. Belə ki, Ermənistan tərəfinin uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutmasına baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə alıb, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev döyüşlərin qızğın vaxtında Xankəndinin erməni sakinlərinə də müraciət ünvanlayaraq bildirdi ki, Azərbaycanın əsas hədəfi yalnız işğalçı ordu və onun döyüşçüləridir. Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə və onun infrastrukturlarına atəş açmayacaq. Mülki erməni əhalinin narahat olmasına heç bir əsas yoxdur. Halbuki, bunun tam əksi olaraq, qeyd etdiyimiz kimi, təcavüzkar dinc əhalimizin yaşayış yerlərini, infrastrukturu ağır artilleriya atəşinə tutmaqdan belə çəkinmədi.

Sonda bir daha xatırladaq ki, Azərbaycan bu müharibədə öz ərazilərinin erməni tapdağı altında olduğu şəraitdə milli maraqlarını müdafiə edib. Təsavüzkar erməni ordusunun davamlı təxribat əməlləri qarşısında, sadəcə, susmaq, təmkinlilik mövqeyi göstərmək mümkün olmadığından, Azərbaycan ona layiqli cavab verib, beynəlxalq hüquq normalarından, özünümüdafiə prinsiplərindən yararlanmaqla, ərazi bütövlüyünü bərpa edib.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***